# ELMİ İŞ

Beynəlxalq elmi jurnal

## SCIENTIFIC WORK

International scientific journal

www.aem.az

AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# XII RESPUBLİKA ELMİ QAYNAQLAR KONFRANSININ

# M A T E R İ A L L A R I

(27 mart 2023)

# M A T E R I A L S

# OF THE XII REPUBLICAN CONFERENCE OF SCIENTIFIC SOURCES

(27 march 2023)

# ELMİ İŞ
**Beynəlxalq elmi jurnal**
**İmpakt Faktor: 2.255**

---

## XII RESPUBLİKA ELMİ QAYNAQLAR KONFRANSININ

## M A T E R İ A L L A R I

## (27 mart 2023)

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

# SCIENTIFIC WORK
**International scientific journal**
**Impact Factor: 2.255**

---

## M A T E R I A L S

## OF THE

## XII REPUBLICAN CONFERENCE OF SCIENTIFIC SOURCES

## (27 march 2023)

**Bakı – Baku**
**2023**

Jurnal 25.04.2007-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

The journal is included in the register of Press editions of the Ministry of Justice of the Republic of Azerbaijan on 25.04.2007.
Registration No. 2212

Azərbaycan Mətbuat Şurası
Azerbaijan Press Council

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat avenue 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 809 67 68
+994 12 510 63 99

**e-mail**
aem.konfrans@aem.az

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10. 36719**

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan

## Sədr müavinləri

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## Məsul katib

**Tədqiqatçı Gülnar ƏLİYEVA**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan

## ÜZVLƏR

**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. İbrahim CƏFƏROV**, AMEA / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Şirindil ALIŞANOV**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aydan XƏNDAN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan

### Deputy chairman

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

### Executive secretary

**Researcher Gulnar ALIYEVA**, Azerbaijan Science Center / Azerbaijan

## MEMBERS

**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Ibrahim JAFAROV**, ANAS / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Shirindil ALISHANOV**, Institute of Literature of ANAS / Azerbaijan
**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University / Azerbaijan
**Prof. Dr. Maharram MAMMADLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, Azerbaijan language / Azerbaijan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan

**Assoc. Prof. Dr. Shahlar BABAYEV,** Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Teachers' Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Aydan KHANDAN**, Baku State University / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 6-9
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 6-9
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Afaq Hacıyeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
afaqhaciyeva@mail.ru
https://orcid.org/0000-0003-0535-6818

## REKLAM SAHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ MÖVCUD QANUNVERİCİLİYİNİN ƏN MARAQLI MƏQAMLARI

***Açar sözlər:*** *reklamvericilər, məhsul satışı, reklamların istehlakçılara xitab etməməsi, reklam mətnləri, reklam sahəsində fikirlər*

***Keywords:*** *advertisers, product sales, advertising failure to appeal to consumers, advertising texts, ideas in the field of advertising*

İstər qədim dövrlərə, istərsə də həmin ərazilərdə yaşayan müasir insanların düşüncə tərzinə diqqət etsək qədim dövrlə indiki müasir, çağdaş zəmanənin ortaq cəhətlərinin olduğunu görəcəyik. Reklam da bir növ məhsul satışını təmin etməyə yönəlmiş fəaliyyət olsa da, son nəticədə xalqların tarixi və mənəvi irsini özündə ehtiva edir. Reklamların istehlakçılara xitab etməməsinin ən böyük səbəbi isə reklam mətnlərinin uğursuz formada olmasıdır. O zaman çox maraqlı tədqiqat sualı ortaya çıxır: necə etmək olar ki, Azərbaycanda reklam izlənilsin? Cavab isə sadədir. Reklam mətni aydın, hər kəsin qəbul edəcəyi formada verilməli, əhalinin bütün kütləsini nəzərə almalıdır. Buna nail olmaq üçün reklamın sürətlə inkişaf

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

etdiyi ölkələrə müraciət etmək lazımdır. Həmin ölkələrin reklam sahəsində əldə etdikləri bilikləri Azərbaycana tətbiq etməklə reklam sahəsində yaranmış mənfi fikirləri aradan qaldırmaq və güclü izləyici kütləsi formalaşdırmaq lazımdır. Elə isə reklamın sürətlə inkişaf etdiyi ölkələrin təcrübəsini araşdıraq. Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunları əhatəli şəkildə araşdırılmış, qeyd olunan qanunların reklamvericilər qarşısında qoyduqları tələblər təhlil olunmuşdur. Reklam dedikdə reklam istehlakçısının, başqa sözlə alıcının bütün diqqətini reklam obyektinə cəlb etmək, reklam olunan məhsula qarşı istehlakçıda maraq yaratmaq və bu marağı uzunmüddətli təmin etmək, eləcə də məhsulun, əmtəə və xidmətin bazarda tanıdılmasını təmin etməklə onun satışını həyata keçirmək məqsədilə kütləvi informasiya vasitələrində, internetdə və yaxud da şəhər mərkəzlərində, əhalinin və hərəkətin sıx olduğu mərkəzi küçələrdə yayımlanan məlumat başa düşülür.

İnsan emosional varlıqdır. Bunu dərk edən marketoloqlar və reklam yaradıcıları istehlakçıların emosiyalarını cəlb etmək, onların diqqətini reklama yönləndirmək, öz mesajlarını istehlakçılara təsirli şəkildə çatdırmaq, yaddaşlarda qalıcı olmaq və satınalma yaratmaq üçün cəlbedicilik adlı elementlərdən istifadə edərək reklam strategiyaları yaratmağa başlamışlar. Reklam ədəbiyyatında tez-tez istifadə edilən cəlbedicilik, istehlakçıların fiziki, psixoloji, emosional və sosial ehtiyaclarına xitab edən, reklam edilən məhsul və ya xidmətə və hətta reklamın özünə diqqət çəkən bir inandırma vasitəsi kimi fəaliyyət göstərir, maraq oyadır, istehlakçıların münasibət və davranışlarına təsir edir, ən əsası istehlakçıları istiqamətləndirməyi bacarır.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

Reklam cəlbediciliyi istehlakçıların diqqətini cəlb etmək, inandırmaq və markaya münasibət yaratmaq üçün nəzərdə tutulmuş reklam fəaliyyətidir. Reklamın cəlbediciliyi başqa bir tərifdə aşağıdakı kimi ifadə edilir: "İstehlakçıların emosional və rasional istəklərinə, ehtiyaclarına və gözləntilərinə uyğun hazırlanmış və diqqəti cəlb etmək, maraq oyatmaq və inandırmaq psixologiyasını hədəfləyən əsas fəaliyyətə reklam deyilir". Reklam cəlbediciliyi istehlakçıların açıq və gizli istək və arzularını aktivləşdirəcək, onların maraq və motivlərini reklam mesajına daşıyacaq elementlərdir. Reklam cəlbediciliyi nəticəsində əldə olunacaq qazanclar aşağıdakı şəkildə verilmişdir.

- Reklam əmtəə istehlakçılarının seçimini stimullaşdırmalı, onları aldatmamalı, çaşqınlıq hissi yaratmamalıdır;
- Reklam dövlət əleyhinə yönələn açıq çağırışlara, dövlətə xəyanətə, terrorçuluğa, zorakılığa, təcavüzə, insanların həyat və sağlamlığına, şərəf və ləyaqətinə ziyan vura biləcək hərəkətlərə təhrik etməməlidir;
- Reklam milli mənəvi dəyərlərə, dini və siyasi əqidəsinə, ictimai təhlükəsizliyə və ətraf mühitə ziyan verəcək hərəkətlərə təhrik etməməlidir;
- Narkotik vasitələrin, psixotrop maddələrin, pornoqrafiyanın, tütün və tütün məmulatlarının reklamına yol verilməməlidir;
- Reklamda yalnız Azərbaycan Respublikası ərazisində tətbiqinə icazə verilmiş ölçü vahidlərindən istifadə olunmalı, əmtəələrin qiyməti Azərbaycan Respublikasının pul vahidi ilə göstərilməlidir;
- Reklam qurğuları insanların rahatlığını pozmamalı, nəqliyyat vasitələrinin hərəkətinə təhlükə yaratmamalı, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş texniki tələblərə cavab verməlidir.

**Sxem 1. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda reklamla bağlı tələblər**

**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12**

***Mənbə:*** *“Reklam haqqında” Azərbaycan Respublikasının Qanununun məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Sxemdən də göründüyü kimi “Reklam haqqında” Azərbaycan Respublikasının Qanunu reklamla bağlı reklamvericilər qarşısında sərt tələblər müəyyən edib. Belə ki, Qanun reklam mətnlərinin istehlakçıları aldatmamağa, onlarda çaşqınlıq hissinin yaranmasının qarşısını almağa sövq etməklə yanaşı, eyni zamanda da reklam mətnlərində dövlətə qarşı açıq çağırışların, dövlətə xəyanət və terrorçuluq, təcavüz kimi cinayətlərin təbliğ olunmasına birmənalı şəkildə qadağalar qoyur. Eyni zamanda da bu Qanun narkotik vasitələrin, psixotrop maddələrin, eləcə də tütün və tütün məhsullarının satışı ilə bağlı reklam mətnlərinin yerləşdirilməsinə qadağaların tətbiq edilməsi ilə bağlı reklamvericilər qarşısında sərt tələblər müəyyən etmişdir.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 10-14
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 10-14
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Xəzər Aslanov**
AMEA İqtisadiyyat İnstitutu
doktorant
xezer.aslan@gmail.com

# QEYRİ-FORMAL İQTİSADİYYATIN MAHİYYƏTİ VƏ AZƏRBAYCANDA ONA QARŞI GÖRÜLƏN TƏDBİRLƏR

***Açar sözlər:*** *iqtisadiyyat, məşğulluq, maliyyə, büdcə, nəzəriyyə*
***Keywords:*** *economy, finance, budget, control, employment*

Əvvəlcə qeyd olunmalıdır ki, qeyri-formal iqtisadiyyat problemi inkişaf etməkdə olan ölkələrlə bağlı araşdırmalarda qaldırılmışdır. Bu isə, qeyri-formal sektorun öyrənilməsi kontekstində həyata keçirilmişdir. Anlayışın tətbiqi bu ölkələrdə mütəşəkkil əmək bazarında iştirak etməyən, lakin eyni zamanda yaşamaq ideyasına tabe olan öz məşğulluq sistemini yaratmış əhəmiyyətli insan qruplarının olması ilə əlaqədar olmuşdur. Bu, özünüməşğulluq və ya kiçik ailə biznesi formasında mövcud olan müxtəlif fəaliyyətlərdə özünü göstərmişdir (Castells, 1989: 150).

"Qeyri-rəsmi sektor" anlayışı istehlakçılar, işçilər və kreditorlarla qeyri-rəsmi, fərdiləşdirilmiş münasibətlərə əsaslanan müxtəlif məşğulluq formalarını birləşdirmişdir. Qeyd edək ki, bu mərhələdə qeyri-formal sektor qeyri-formal iqtisadiyyatın sinonimi olmuşdur (Sindyashkina, 1998: 45).

İlkin olaraq qeyri-rəsmi sektor adlandırılacaq başqa terminlərdən istifadə olunmuşdur. Birincisi, 1950-ci illərin əvvəllərində C.Boyk "ikili iqtisadiyyat" fenomenini qeyd etmişdir (Entrepreneurship Development Foundation, 2020: 5). On il sonra isə, K.Girtz "bazar iqtisadiyyatı" və "firma

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

mərkəzli iqtisadiyyat" ("bazaar-economy" və "firm-centered economy") adlandırılan iqtisadiyyata bölgü təqdim etmişdir (Hart, 1973: 4). Firma tərəfindən təşkil edilmiş iqtisadiyyat "bazar" iqtisadiyyatından fərqli olaraq daha səmərəli, kapital tutumlu, daha yüksək əmək məhsuldarlığına malik olaraq təsvir edilmişdir (Bromley, 1978: 300) (əmək tutumlu, aşağı məhsuldarlıqlı, kiçik miqyaslı, aşağı gəlirli).

Yuxarıdakı fikirləri nəzərə alaraq qeyd edə bilərik ki, dövlət qurumlarının maliyyə göstəricilərinin beynəlxalq standartlara uyğun olaraq şəffaf olmaması və hazırlanan maliyyə hesabatlarının ədalətli şəkildə təqdim olunmaması kölgə iqtisadiyyatının dərinliyini daha da artır (Entrepreneurship Development Foundation, 2020: 15). Lakin Azərbaycan hökuməti son illər maliyyə intizamını yaxşılaşdırmaq üçün kölgə iqtisadiyyatına qarşı intensiv mübarizə aparır (6). Belə ki, kölgə iqtsadiyyatının əsas predmetlərindən birinin dövriyyədə olan nağd pul kütləsi olduğunu qəbul etsək, son illərdə bu istiqamətdə ciddi azalmaların olduğunu aşağıdakı qrafikə baxaraq görə bilərik (7).




***Mənbə:*** *Azərbaycan Respublikası Mərkəzi bankın məlumatları əsasında (https://www.cbar.az/page-42/monetary-indicators) müəllif tərəfindən hazırlanıb.*

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

“Kölgə iqtisadiyyatı”nın səviyyəsinin aşağı salınmasına istiqamətlənmiş ən əhəmiyyətli tədbirlərdən biri də əmək bazarında məşğul əhalinin gəlirlərinin şəffaflaşdırılmasına yönəlik atılmış addımdır. Belə ki, 2019-cu ildə vergi güzəştlərinin tətbiq olunmasından sonra qeyri-neft sektorunda fəaliyyət göstərən özəl təşkilatlar üzrə əmək müqavilələrinin miqdarı 2019-cu il üzrə 18.3%, 2020-ci il üzrə isə 24% artmışdır. Buna müvafiq olaraq, əməkhaqqı xərclərinin artım səviyyəsi 29.5% və 12.3% təşkil edib. Qəbul edilmiş qərar dövlət büdcəsində orta hesabla il ərzində 300 milyon manat vergi gəlirlərinin azalmasına səbəb olsa da, DSMF-yə daxil olan sosial sığorta haqlarının çoxalmasına imkan yaradaraq dövlət büdcəsindən fonda ayrılan dotasiyaların da xeyli miqdarda azalmasına səbəb olub. Yəni məcburi dövlət sosial sığorta üzrə ödənişlər vasitəsilə daxil olan gəlirlər 2019-cu ilin keçən dövr ilə müqayisəsində 26%, 2020-ci ildə isə 21.6% artım göstərmişdir (8).

“Kölgə iqtisadiyyatı”nın miqyasının azaldılmasına yönəlmiş tədbirlərdən biri də, mühasibat uçotu sisteminin bərpası, gəlir və xərclərinin uçotunun şəffaf səviyyədə aparılması, məhsul və xidmətlərin sənədləşdirilmiş qaydada dövriyyəsinin təşkilidir.

Bu tədbirin əsas məqsədi rəsmi şəkildə fəaliyyət göstərən sahibkarlara dəstək vermək, şəffaf fəaliyyət göstərməkdən boyun qaçıran sahibkarlara isə bir sıra məhdudlaşdırmaların tətbiq edilməsinə yönəldilib. Əlavə olaraq, vergi qanunvericiliyində ölkə tarixində ilk dəfə olaraq “riskli vergi ödəyicisi” vasitəsi ilə onlara qarşı müəyyən məhdudlaşdırma siyasəti nəzərdə tutulmuşdur (9).

2020-ci ilin may ayından pərakəndə ticarət və ictimai iaşə obyektlərindən əldə edilmiş məhsul və xidmətlərə görə ƏDV-nin müəyyən qisminin geriyə qaytarılması üzrə Kapital Bank və Azərbaycan Beynəlxalq Bankının maliyyə partnyoru

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

olduğu "ƏDV geri al" layihəsinə başlanılmışdır. Layihəyə görə məhsul və xidmətlərə görə edilən ödəniş nağdız xüsusiyyətinə malikdirsə ƏDV-nin 15%-i, nağd xüsusiyyətinə malikdirsə ƏDV-nin 10%-i istehlakçıya geri qaytarılmalıdır. Layihənin başlanğıcından indiyə kimi, yəni iki il ərzində ƏDV geri al saytından qeydiyyatdan keçmiş istifadəçilərə 320 mln AZN ƏDV geri qaytarılıb. 2022-ci ilin yanvar-sentyabr ayı üzrə isə bu rəqəm 142 mln AZN təşkil edir. Layihə çərçivəsində 2022-ci ilin sentyab ayına kimi, nağdsız qaydada alınmış məhsul və xidmətlərə görə istifadəçilərə 46.2 mln AZN-dən çox vəsait geri ödənilib (10).

## Ədəbiyyat

1. Castells, M., Portes, A. (1989). World Underneath: The Origins, Dynamics, and Effects of the Informal Economy. L. Benton (eds.). L.: The Johns Hopkins University Press.
2. Sindyashkina, Ye. (1998). Zanyatost' i rynok truda. Novyye realii, natsional'nyye prioritety, perspektivy. M.: Nauka, s.67.
3. Azerbaijan: issues of increasing the efficiency of large state-owned enterprises. (2020). Entrepreneurship Development Foundation. Baku.
4. Hart, K. (1973). Informal Economy Opportunities and the Urban Employment in Ghana. Journal of Modem Africa Studies, Vol. 11, No. 1.
5. Bromley, R. (1978). Introduction − the Urban Informal Sector: Why Is It Worth Discussing? World Development. No. 6, p.1036.
6. https://europa.eu/capacity4dev/file/88944/download?token=1Lb4yf8Y
7. https://ereforms.gov.az/az/media/xeberler/nagdsiz-odenislerin-artimi-kolge-iqtisadiyyatinin-miqyasinin-azalmasina-tesir-edir-535

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

8. https://www.taxes.gov.az/az/post/1566
9. https://www.taxes.gov.az/az/post/1566
10. https://vergiler.az/news/taxes/19970.html

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 15-24
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 15-24
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Vüsalə Həsənova**
Azərbaycan Dillər Universiteti
dissertant
vusalahasanova1986@gmail.com
https://orcid.org/0000-0003-3529-032X

# HECA FONOLOJİ SİSTEMİN REALLAŞMASININ LİNQVİSTİK MƏKANI KİMİ
## (İngilis və Azərbaycan dillərinin materialları əsasında)

***Açar sözlər:*** *fonem, fonem birləşmələri, fonotaktika, heca, sintaqmatika, heca modelləri, seqment*
***Keywords:*** *phoneme, phoneme combinations, phonotactics, syllable, syntagmatics, syllabic patterns, segment*

Əksər fonetik göstəricilər dilin təbii ünsiyyət prosesində işlənməsindən deyil, mətnlərin oxunuşu, ayrı-ayrı sözlərin laboratoriya şəraitində təcrid edilmiş, başqa sözlə, kanonik tələffüzündən alınmışdır ki, bu da dil sisteminin sintaqmatikada reallaşmasının həqiqi və hərtərəfli təsvirini verməyə imkan vermir. Halbuki F.Y.Veysəllinin də yazdığı kimi, fonemlərin sintaqmatikada birləşməsinin "dilin özünə məxsus müəyyən dildaxili qanunlara tabedir" (Veysəlli, 2014: 305). Bu cür fonetik biliklərin əsasında qurulmuş sintaqmatik heca modelləri isə dil sisteminin konkret reallaşmalarının adekvatlığını sual altına alır.

Dilin fonoloji sisteminin təsvirinin dolğunluğu üçün fonem birləşmələrinin öyrənilməsi vacib şərtdir, çünki sintaqmatikada bir fonemin digər fonemlərlə birləşməyə girməsi və onların hansı ardıcıllıqlarla birləşmələrinin müəyyən edilməsi fonoloji xarakterli tipoloji tədqiqatlar üçün vacibdir. Müasir fonoloji tədqiqatlarda sözün fonetik təşkilinə münasibətdə, bir qayda olaraq, sözlərin tərkibində ayrı-ayrı fonemlərin və fonem

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

birləşmələrinin distributiv əlamətlərinə diqqət yetirilir. Sintaqmatik fonologiyada söz strukturunun yalnız statikada araşdırılması dil sisteminin fonotaktik modellərin üzə çıxarılmasında relevant sayıla bilməz.

Danışığın heca strukturu universal hadisədir və dil daşıyıcılarının hamısı tərəfindən dərk edilir. Bununla belə, heca problemi fonetik tədqiqatların ən qəliz məsələlərindən hesab edilir. E.Palqremin fikrincə, "heca bütün dillərin əməliyyat vahididirsə, onda o həm də universal dil vahididir" (Pulgram, 1971: 39). Göründüyü kimi, E.Palqrem hecanın dil vahidlərinin üzvlənməsindən başqa, hər hansı bir xüsusi funksiyasının olmasını israrla inkar etmişdir: "Heca faktiki olaraq yalnız özünün xüsusi sərhədləri naminə mövcuddur" (Pulgram, 1971: 40).

Fonetik tədqiqatlarda hecanın statusu, yəni o, dil və ya danışıq səviyyəsinə aiddir? sualı da bu problemlər arasındadır. Fonoloji səviyyədə fonemli dillərdə heca aid olduğu dildə fonem birləşmələrinin qüvvədə olan qanunlarının reallaşmasından ibarət fonotaktika vahidi kimi nəzərdən keçirilir. Fonetik səviyyədə isə hecanın funksiyası onun samit və saitlərin fərqləndirici əlamətlərinin reallaşması üçün linqvistik sahə kimi izah olunur, yəni fonemlərin fonetik əlamətləri məhz hecada reallaşır. Heca ilə bağlı tədqiqatçılar arasında fikir ayrılığı həm də onun fonetik və ya fonoloji vahid olması ilə bağlıdır. Bəzi dilçilər heca fonemli dillərdə fonemdən fərqli olaraq məna ilə bağlı olmadığını yazırlar. Məsələn, L.R.Zinder "...hecanın məna ilə əlaqəsinin olmamasını" əsas gətirərək onun fonoloji mahiyyətli olmadığına israr edirlər (Zinder, 1979: 287).

V.B.Kaseviç isə hecanın statusuna fərqli yanaşır. Müəllif dil vahidlərini dilin paradiqmatikasına aid olan inventarlara və qeyri-inventar vahidlərin struktur tipləri və sxemlərin aid olduğu sintaqmatiklərə bölür. Müəllif hecanı sintaqmatikaya aid

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

edir və müxtəlif dillərdə danışığın hecaya üzvlənməsinin ayrı-ayrı dillərdə fərqli olduğunu da yazır (Kasevich, 2006: 100). F.Y.Veysəlli hecanı fonemlərin ilkin reallaşdığı meydan adlandırır və bəzi dilçilərin səhvən onu fonoloji vahid adlandırmasına münasibət bildirərkən yazır: "...heca prosodiyanın ən kiçik vahididir və o, heç bir fonoloji əhəmiyyət kəsb etmir" (Veysəlli, 2017: 200).

İngilis dilçiləri N.A.Kurat (Kurath, 1964), P.Rouç (Roach, 2001), J.O'Konor (O'Connor, Trim, 1953) üçün heca fonoloji vahiddir. Fonoloji hecanın funksional planda rəngarəngliyinə əsasən onun supraseqment və seqment səviyyələr arasında aralıq mövqe tutduğu iddia olunur. Birinci halda heca söz strukturunda vurğunun paylanması ilə bağlıdır və bu müəyyən dərəcədə heca sərhədlərinin müəyyənləşməsində özünü göstərir. Sözün hecaya üzvlənməsində samit adətən dərəcəsi yüksək olan saitə birləşir. Məsələn, ingilis dilində "carpeting" sözündə heca sərhədi /p/ samitindən sonra keçir, çünki kip-ləşən-partlayışlı /p/ vurğulu saitə bitişir. Bu sözdə 2-ci heca sərhədi /t/ samitindən sonraya təsadüf edir, çünki ondan əvvəl-ki sait ondan sonrakı və vurğulu hecadan nisbətən aralı yerləşən hecanın saiti ilə müqayisədə daha yüksək akustik parametrlərə malikdir.

Hecanın fonoloji təsviri üçün fonologiyanın yalnız fonemlərin özlərini deyil, həm də onların birləşmələrini təsvir etməsi vacibdir. Fonoloji hecanın sərhədlərinin müəyyənləşdirilməsində fonem birləşmələri qaydalarına xüsusi yer ayrılır. Heca əsas fonotaktik vahiddir və təsadüfi deyildir ki, E.Selkrik "...söyləmin heca strukturu dilin sintaq-matik oxda fonotaktik məhdudiyyətlərini üzə çıxardığını" yazır (Selkirk, 1982: 337).

Hecanı dili sisteminin seqment və supraseqment xüsusiyyətlərinin reallaşdığı ilkin linqvistik məkandır. Bizim qənaətimizə görə, heca tərkibindəki komponentlərinin həm

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

akustik, həm də tələffüz baxımından öz aralarında sıx əlaqələnmiş minimal tələffüz vahididir. Heca fonemin differensial əlamətlərinin reallaşması üçün kontekst və ən kiçik koartikulyasiya vahididir. Bu cəhət isə bizdə onun minimal tələffüz vahidi olması fikrini formalaşdırır. Fonemin reallaşdığı ilkin vahid heca həm də minimal dərketmə vahididir.

Hecanın statusunun müəyyənləşdirilməsi həm də metadil məsələsidir. Buna görə də sintaqmatik fonologiyada fonemlərin birləşmə qaydalarının öyrənilməsinin nəzəri və praktik əhəmiyyəti diqqət mərkəzində saxlanılmalıdır. Fonemlərin sintaqmatikada kombinatorikası dil vahidlərinin bölünməzlik və fərqlilik kimi immanent sistem keyfiyyətləri ilə şərtlənmiş əsas xüsusiyyətidir. Deməli, fonemlərin kombinatorikasını şərtləndirən dildaxili qanunları dilin hierarxiklik və xəttilik kimi əsas xüsusiyyətlərinə daxil etmək mümkündür. Ana dilinin fonotaktik biçimi üçün yad olan fonem birləşmələrinin olması, ikinci dili öyrənərkən dilöyrənənlərin qarşılaşdığı əsas çətinliklərdən biridir. Dilin fonotaktik xüsusiyyətlərinin tədqiqində aşağıdakı meyarlara istinad etmək vacibdir:

1) fonemlərin öz aralarında birləşmələrini müəyyən etmək;
2) fonem birləşmələrində samitlərin hansı ardıcıllıqlarla birləşmələrini təyin etmək;
3) hansı sayda fonemin bir birləşmənin tərkibinə daxil olmasını təyin etmək.

Fonem tərkibindən və onların bir-birini izləməsindən asılı olaraq sintaqmatikada hecalar müxtəlif, lakin məhdud sayda modellərə malik ola bilər. Söz strukturunun başlanğıc və son mövqelərində işlənən birləşmələrlə eyniyyət təşkil edən orta mövqe konsonant birləşmələri həm həqiqi ingilis sözlərində, həm də assimilyasiyaya uğramış alınmalarda rast gəlinir. Məsələn, “stool – bastard-mist/st”, “spend – aspic – grasp/sp”

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

və s. Halbuki yalnız söz strukturunda yalnız orta mövqedə reallaşan konsonant birləşmələr isə alınma sözlərin tərkibində işlənir. Məsələn, “alga/lg”, “daphne/fn”, “picnic/kn”, “enigma/gm” və s.

Bu məqalədə tutuşdurulan ingilis və Azərbaycan dillərində heca tiplərinin işlənmə tezliyini konkret mətnlər əsasında müəyyənləşdirilmişdir. Hər iki dil üçün səciyyəvi və işlək heca modelləri sintaqmatikada müəyyən edilmişdir. Bu məqsədlə bədii, publisistik və elmi mətnlər statistik təhlilə cəlb edilmişdir. Statistik təhlilə cəlb olunmuş mətnlər üzrə sintaqmatikada reallaşmış heca tiplərinin işlənmə tezliyi belədir:

**Cədvəl 1.**
**İngilis dilində mətnlərdə heca strukturları**

| № | İngilis dilində heca modellərinin mətndə işlənmə tezliyi | | | |
|---|---|---|---|---|
| | Heca tiplər | Bədii mətndə | Publisistik mətndə | Elmi (linqvistik) mətndə |
| 1 | V | 86 | 18 | 21 |
| 2 | KVK | 152 | 253 | 239 |
| 3 | KVKK | 12 | 51 | 38 |
| 4 | KVKKK | - | 3 | 7 |
| 5 | KKVK | 4 | 3 | 39 |
| 6 | KKKVK | - | - | - |
| 7 | KKVKK | - | - | 2 |
| 8 | KKVKKK | - | - | - |
| 9 | KKKVKK | - | - | - |
| 10 | KKKVKKK | - | - | - |
| 11 | KVKKK | - | - | - |
| 12 | KKVKKKK | - | - | - |

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

| | | | | |
|---|---|---|---|---|
| 13 | KKVKKKKK | - | - | - |
| 14 | KV | 1004 | 616 | 554 |
| 15 | KKV | - | 8 | 11 |
| 16 | KKKV | - | - | - |
| 17 | VK | 260 | 38 | 236 |
| 18 | VKK | 2 | - | 14 |
| 19 | VKKK | - | - | - |
| | Bu isə samit+sonor l, m, n, r və s. birləşmələridir. | | | |
| 20 | KS | 260 | 26 | 26 |
| 21 | KSK | 4 | 1 | 2 |
| 22 | KKSK | - | - | - |
| 23 | KSKK | - | - | - |
| 24 | KKSKK | - | - | - |
| | Cəmi | 1698 | 1012 | 1189 |

Hər üç dil materialında sintaqmatikada maksimum işlənmə tezliyi KV (samit +sait) ardıcıllığına məxsusdur: bədii mətndə − 1004 heca, publisistik mətndə − 616 heca, elmi mətndə − 554 heca.

İngilis dilində digər işlək model KVK tipli heca modelidir: bədii mətndə 1434 halda 152 dəfə, publisistik mətndə 982 halda 253 dəfə, elmi mətndə 1189 halda 239 dəfə qeydə alınmışdır. Bədii mətndə ingilis dilində nisbətən az rast gəlinən modellər KKVK, KVKK və KKVKK birləşmələridir. CVC heca modelinin yaranmasında ilk komponent kimi /ŋ, tʃ, dʒ/ samitləri istisna olmaqla 21 samit iştirak edir. Bu tip birləş-mələrdə ikinci komponent kimi 17 samit (tʃ, dʒ, ŋ, j, w, r, ɵ samitləri istisna olmaqla) təşkil edir.

İngilis dilindəki mətnlərin statistik nəticələri açıq heca modelinin üstünlük təşkil etdiyini əks etdirir – 56 %. Nisbətən

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

zəif göstərici örtülü-qapalı heca tipini (KVK) aiddir: bədii mətndə − 152 heca, publisistik mətndə − 253 heca, elmi mətndə − 239 heca. Kəmiyyət nisbətinə görə bu heca strukturu bütün dil materialının 16% təşkil edir. İşlənmə tezliyinə görə 3-cü yerdə saf heca (V) gəlir: bədii mətndə − 86 heca, publisistik mətndə − 18 heca, elmi mətndə − 21 heca. Bu tip heca modeli ümumi heca sayının 3.2%-ni təşkil edir. VK heca modeli isə mətnlər üzrə ümumi heca sayının 12.8%-ni təşkil edir. KS heca modeli isə 312 halda qeydə alınmışdır.

İngilis dili Azərbaycan dili ilə müqayisədə heca modelləri – iki, üç, dördüzvlü konsonant komponentlərin zənginliyi ilə diqqəti cəlb edir ki, bunu da ingilis dilinin sintaqmatikada güclü konsonantlaşması kimi izah etmək olar. Sintaqmatikada bir neçə samitin yanaşı gələ bilməsi ingilis dilində heca modellərinin sayca çoxluğunu təmin edir.

**Cədvəl 2.**
**Azərbaycan dilində mətnlərdə heca strukturları**

| № | Azərbaycan dilində heca modellərinin mətndə işlənmə tezliyi | | | |
|---|---|---|---|---|
| | Heca tipləri | Bədii mətndə | Publisistik mətndə | Elmi (linqvistik) mətndə |
| 1 | V | 270 | 220 | 280 |
| 2 | KVK | 1356 | 1323 | 1520 |
| 3 | KVKK | 22 | 50 | 105 |
| 4 | KVKKK | - | - | 20 |
| 5 | KKVK | - | - | 35 |
| 6 | KKKVK | - | - | 12 |
| 7 | KKVKK | - | - | 6 |
| 8 | KKVKKK | - | - | - |
| 9 | KKKVK | - | - | - |

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 15-24
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 15-24
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

| | | | | |
|---|---|---|---|---|
| 10 | KKKVK | - | - | - |
| 11 | KVKKK | - | - | - |
| 12 | KKVKKKK | - | - | - |
| 13 | KV | 2155 | 1954 | 2460 |
| 14 | KKV | 1 | - | 22 |
| 15 | KKKV | - | - | - |
| 16 | VK | 180 | 185 | 205 |
| 17 | VKK | 11 | 10 | 8 |
| 18 | VKKK | - | - | - |
| | Cəmi | 3725 | 3742 | 4673 |

Azərbaycan dilindən seçilmiş dil materialının statistik təhlili aşağıdakı nəticələri üzə çıxarmışdır: hər üç dil materialında maksimum işlənmə tezliyi KV (samit+sait) ardıcıllığına məxsusdur: bədii mətndə – 2155 heca, publisistik mətndə – 1954 heca, elmi mətndə – 2460 heca.

Statistik nəticələr hər üç mətndə açıq heca modelinin üstünlük təşkil etdiyini əks etdirir – 53%. Nisbətən zəif göstərici örtülü-qapalı heca tipini (KVK) aiddir: bədii mətndə – 1356 heca, publisistik mətndə – 1323 heca, elmi mətndə – 1520 heca. Kəmiyyət nisbətinə görə bu heca strukturu bütün dil materialının 34% təşkil edir. Dil materialında işlənmə tezliyinə görə üçüncü yerdə saf heca (V) gəlir: bədii mətndə – 270 heca, publisistik mətndə – 220 heca, elmi mətndə – 280 heca. Dördüncü sırada qapalı heca modeli yer alır: bədii mətndə – 180 heca, publisistik mətndə – 185 heca, elmi mətndə – 205 heca. Mətnlərdə işlənmə tezliyinə görə beşinci sırada KVKK heca modeli gəlir: bədii mətndə – 22 heca, publisistik mətndə – 50 heca, elmi mətndə – 105 heca modeli. İşlənmə tezliyinə görə altıncı sırada VCC heca modeli gəlir: bədii

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

mətndə − 11 heca, publisistik mətndə − 10 heca, elmi mətndə − 8 heca modeli.

Bədii mətndə KV heca modeli ümumi heca kütləsinin 54%-ni təşkil edir. KVK heca modeli isə 34%-ni təşkil edir. KV və KVK heca modelləri ümumi heca kütləsinin 88%-ni təşkil edir. Publisistik mətndə KV heca modeli ümumi heca kütləsinin 52%-ni, KVK heca modeli isə 36%-ni təşkil edir. KV və KVK heca modelləri ümumi heca kütləsinin 88%-ni təşkil edir. Bu tezlik göstəriciləri bədii və publisistik mətnlərdə KV və KVK tipli heca modellərinin qalan heca modellərinə olan nisbətinin 88%:12% olması deməkdir.

Elmi mətndə KV heca modeli ümumi heca kütləsinin 53%-ni, KVK heca modeli isə onun 33%-ni təşkil edir. Ümumilikdə KV və KVK heca modelləri ümumi heca kütləsinin 86%-ni təşkil edir. Bu tezlik göstəriciləri elmi mətndə KV və KVK tipli heca modellərinin qalan heca modellərinə olan nisbətinin 86%:14% olması deməkdir.

Paradiqmatikada və sintaqmatikada fərqli heca modellərinin alınmasında yaranan fərqi Azərbaycan dilinin fonotaktika qaydalarının reallaşmada daha güclü olması ilə izah etmək olar.

Dilin fonoloji sisteminin təsvirində paradiqmatikaya əsaslanmaq yetərli deyildir, çünki sintaqmatika, yəni fonemlərin reallaşması linqvistik baxımdan daha informativdir. Müxtəlif dillərin fonoloji sistemləri arasında fərqlər yalnız fonem tərkibində deyil, həm də onların re-allaşmasında özünü göstərir. Bir dil üçün məqbul hesab edilən heca modeli, digər dil üçün səciyyəvi olmaya bilər. Heca modellərindəki fərqliliklər isə fərdlərin tələffüzündə dillərarası interferensiyanın yaranmasına səbəb ola bilər. Deməli, fonoloji baxımdan universal heca mövcud deyil və bunun linqvistik baxımdan universal distribusiyanın mövcud olmaması ilə izah etmək olar.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 15-24
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 15-24
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

## Ədəbiyyat

1. Veysəlli, F.Y. (2014). Azərbaycan dilinin funksional qrammatikası: fonemika/morfemika. Bakı: “Prestij” çap evi, 530 s.
2. Pulgram, E. (1971). Syllable, word, nexsus, cursus. The Hague: Paris, Mouton, 131 p.
3. Zinder, L.R. (1979). Obshchaya fonetika. Moskva: Vysshaya shkola, 312 s.
4. Kasevich, V.B. (2006). Trudy po yazykoznaniyu: V 2 t.: T.1. Pod red. Yu.A.Kleynera. Leningrad: Filologicheskiy fakultet SPbGU, 664 s.
5. Veysəlli, F.V. (2017). Dilçiliyə giriş. Bakı: Mütərcim, 400 s.
6. Kurath, H. (1964). A Phonology and Prosody of Modern English. Michigan: The Univ. of Michigan Press, 158 p.
7. Roach, P. (2001). Phonetics. Oxford University Press. Printed in Hong Kong, 117 p.
8. O'Connor, J.D., Trim, J.L.M. (1953). Vowel, consonant and syllable − a phonological definition. Word 9, p.103-122.
9. Selkirk, E.O. (1982). The Syllable. The Structure of Phonological representations. Part II. Holland, p.337-383.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 25-26
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 25-26
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Nərgiz Rzayeva**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
dissertant
nargiz_rzayeva@hotmail.com

# ÇAĞDAŞ DÖVR AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ MİLLİ ƏNƏNƏLƏRİN MÜASİR İNTERPRETASİYASI

***Açar sözlər:*** *Azərbaycan, təsviri sənət, rəngkarlıq, qrafika, ənənə, müasirlik, interpretasiya*
***Keywords:*** *Azerbaijan, fine art, painting, graphics, tradition, modernity, interpretation*

XX əsrin son rübündən etibarən Azərbaycan rəssamlarının yaradıcılığında qədim milli ənənələrin müasir interpretasiyası müşahidə edilməyə başladı. Bu, xüsusilə rəngkarlıq və qrafika sahəsində fəaliyyət göstərən rəssamların əsərlərində daha aydın şəkildə özünü göstərirdi. Belə ki, bu dövrdə görkəmli təsviri sənət ustalarımız öz əsərlərində qədim miniatür ənənələrini yeni – özünəməxsus təqdimatda davam etdirirdilər.

Çağdaş dövrdə dəzgah qrafikası sahəsində səmərəli fəaliyyət göstərən rəssamlarımız arasında Arif Hüseynov, Rafis İsmayılov, Nüsrət Hacıyev, Sara Manafova, Aytən Şirzadova və s. adlarını xüsusilə qeyd etmək olar. Bu rəssamlar ərsəyə gətirdikləri əsərlərdə qədim miniatür ənənələrinə müasir münasibətlərini nümayiş etdirməklə yanaşı, miniatür üslubunun özünəməxsusluğunu qoruyub saxlamaqdadırlar.

Zəngin yaradıcılığı ilə seçilən Arif Hüseynovun dəzgah qrafikası əsərlərində milli ənənələrin tərənnümü, xüsusilə rəssamın miniatür üslubuna böyük maraq nümayiş etdirməsi onun erkən dövr yaradıcılığından başlayaraq özünəməxsusluğunu şərtləndirən əsas bədii

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

xüsusiyyətlərdəndir. Miniatür üslubunda davamlı işləyən rəssamlar arasında Sara Manafova xüsusilə seçilir. O, miniatür üslubunun dərinliklərini, miniatürə xas plastika və zərif ayrıntılar, zəngin kolorit həlli və kompozisiya quruluşunu yaxşı mənimsəmişdir. Onun "Məhəbbət − görüntü" (1995), "Leyli və Məcnun" (1995), "Gənclik" (2003), "Cənnət quşu. Liananın portreti" (2004) əsərləri bu mənada yaddaqalandır.

Milli üslubda yeni mövzuların şərhi gənc rəssamlar arasında Aytən Şirzadovanın yaradıcılığı diqqətçəkəndir. Rəssamın "Musiqi" (2005), "Poeziya" (2005), "Eşq" (2007) və s. əsərlərində ənənə və müasirliyin vəhdəti aydın sezilir.

Yuxarıda qeyd olunan əsərlərdə ənənəvi miniatür üslubu müasir təsvir dili ilə birləşmiş və nəticədə bədii ifadə həllinə görə peşəkar əsərlər ərsəyə gəlmişdir. Eyni zamanda klassik miniatür üslubuna yeni yaradıcı yanaşma ilə yaradılmış bu əsərlər onun göstərir ki, onların yaradıcıları klassik əlyazmalarına illüstrə edilmiş miniatürlərdən ilhamlanıb, eyni zamanda onlara yeni dövrün tələbləri prizmasından yanaşıblar.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 27-29
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 27-29
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Əlləz Əhmədov**
AMEA Memarlıq və İncəsənət İnstitutu
dissertant
ellez.ehmedov89@gmail.com

# MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN TEATRINDA REPERTUAR VƏ TAMAŞAÇI PROBLEMİ

***Açar sözlər:*** *repertuar, dramaturq, rejissor, aktyor, tamaşaçı,*
***Keywords:*** *repertoire, dramatist, stage director, acor, spectator*

“Repertuar teatrın aynasıdır” − deyirlər. Sözsüz ki, əsrlərin sınağından çıxmış bu fikrin sübuta ehtiyacı yoxdur. Həqiqətən də seçilmiş repertuar hər bir teatrın ideya-bədii istiqamətini, onun tamaşaçı ilə ünsiyyətə girmək istədiyi mövzu dairəsini əks etdirməklə yanaşı, teatrın bədii-yaradıcılıq imkanlarını və səviyyəsini də göstərir. Bu mənada, düzgün repertuar seçimi teatrların qarşısında duran ən vacib məsələlərdəndir.

Ölkəmiz müstəqillik qazandıqdan sonra teatrlarımız repertuarı müəyyənləşdirmək baxımından daha böyük sərbəstlik və geniş imkanlar əldə etdilər. Müstəqillik illərində yeni yaranan (“Dövlət Gənclər” Teatrı, “Yuğ” Teatrı, “Bakı Kamera” Teatrı, “Pantomim” Teatrı, “Marionet” Teatrı) dövlət və bələdiyyə teatrları ilə yanaşı (“Meydan”, “Arif” “Satira”, “Tənqid-Təbliğ”, “İlham” miniatür, “İbrus”, “Sönməyən ulduzlar”, “Əhli-Beyt”), özəl truppaların fəaliyyəti (o cümlədən “Araz”, “Zəfər” kimi teatr-studiyalarının yaradıcılıq axtarışları aparması) fərqli repertuar siyasətindən xəbər verirdi. Janr, forma, üslub və mövzu baxımından fərqlənən, diqqəti özünə yönəldən pyeslər teatrlarımızın repertuarında xüsusi yer tutmağa başladı.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 27-29
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 27-29
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

Məlumdur ki, teatrların repertuar siyasəti birbaşa dramaturgiyanın mövcud vəziyyəti ilə bağlıdır. Dramaturgiya nümunələri istər ideyasına, istərsə də mövzusuna görə bugünümüzlə səslənməlidir. Milli klassiklərin və xarici dramaturqların adlarına teatrlarımızın afişalarında rast gəlmək sevindirici hal olsa da, bizi üzəcək məqamlar da az deyil. Bu daha çox, müasir dramaturgiya ilə əlaqədardır.

Belə ki, klassika ilə tanış olan seyirçi yeni, müasir əsərə ehtiyac duyur. Teatr salonu tamaşaçı nəfəsində qızınmaq istədiyi kimi, repertuar da yeni nəsil dramaturqlarla qidalanmaq, yeni pyeslərlə zənginləşmək istəyir. Müasir dramaturqların azlıq təşkil etməsi isə repertuara təsirsiz ötüşmür.

Teatrların cari repertuarına nəzər salsaq görərik ki, M.F.Axundzadə, H.Cavid, C.Məmmədquluzadə, C.Cabbarlı, İ.Əfəndiyev və b. klassik dramaturqlarımıza böyük önəm verilir. Sənət ocaqları repertuarında dünya klassiklərindən U.Şekspir, N.V.Qoqol, A.P.Çexov, J.B.Molyer, V.Hüqo kimi dramaturqların əsərlərini daxil edir. Orta nəsil Azərbaycan dramaturqlarından Elçin, Ə.Əmirli, A.Məsudun adını afişalarda daha çox görürük.

Dövlət Gənclər Teatrı Ə.Əmirli, E.Hüseynbəyli, F.Mustafa kimi yerli dramaturqların püxtələşməsində önəmli rol oynadı. Bununla belə, müasir dramaturqların yetişməsində problemlər qalmaqda idi. Sənət ocaqları repertuarında daha çox dram, komediya və faciə janrında hazırlanan tamaşalara üstünlük verirdi. Müstəqillik illərində truppalar tarixi-qəhrəmanlıq, vətənpərvərlik, sosial-ictimai, ailə-məişət və s. mövzulara geniş yer ayırırdı.

Teatrın repertuar siyasətində dramaturq, rejissor və aktyordan heç də az rolu olmayan digər bir şəxs də var. Bu şəxs, repertuar planını çiynində daşıyan inzibatçıdır. Hansı ki, repertuarda olan istər güclü, istərsə də zəif tamaşaya tamaşaçı

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

cəlb etmək birbaşa onun vəzifəsidir. İnzibatçı teatrda gedən yaradıcılıq proseslərini yaxından izləməli, tamaşalar haqqında geniş məlumata malik olmalıdır.

Acı da səslənsə, etiraf etməliyik ki, bizim bəzi tamaşalara üçüncü premyeradan o tərəfə inzibatçının köməyi olmadan tamaşaçıların gəlməsi müşkülə çevrilir. Müstəqillik illərinin əvvəllərində teatrlarımızda tamaşaçı sayı sonrakı illərə nisbətən üstünlük təşkil etmişdir.

**XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 30-32**
**Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 30-32**
**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12**

**Ayan Əliyeva**
Lənkəran Dövlət Universiteti
magistrant
eliyevaayan46@gmail.com

# İBTİDAİ SİNİFLƏRDƏ SİNTAKSİSİN ÖYRƏDİLMƏSİ ÜZRƏ İŞİN MƏZMUNU

***Açar sözlər:*** *sintaksis, tədris, nəzəri və praktik biliklər, cümlə, əlaqələndirmə, morfologiya, nitq inkişafı, təfəkkür*
***Keywords:*** *syntax, educational, theoretical and practical knowledge, sentence, communication, morphology, speech development, thinking*

İbtidai siniflərdə sintaksisin tədrisi qrammatik anlayışların şagirdlərə praktik şəkildə öyrədilməsi ilə başlayır. Dərsdə əyanilik kiçik yaşlı məktəblilərin marağına səbəb olur. Tədris materialının şagirdlərin gözü qarşısında canlandırılması mövzunun yaxşı yadda qalmasını təmin edir. Bunun üçün şəkil, sxem, diaqram və cədvəllərdən istifadə etmək lazımdır. I-II siniflərdə sxem, diaqram və şəkillər nə qədər sadə olursa, III-IV siniflərdə tədris materialının məzmunu mürəkkəbləşdiyindən istifadə olunan əyani vəsaitlər də mürəkkəb olur.

İbtidai siniflərdə sintaksisin tədrisinin əsas məqsədi tədris materialını yalnız nəzəri cəhətdən şagirdlərə öyrətmək deyil, həm də onun praktik şəkildə tətbiqini təmin etməkdir. Nəzəriyyə ilə təcrübə arasında olan əlaqə qrammatik qaydaların şagirdlərin yaddaşında daha yaxşı qalmasına şərait yaradır. Araşdırmalar göstərir ki, ibtidai siniflərdə bəzən sintaksisdən nəzəri biliklər verilsə də, praktik fəaliyyət özünü göstərmir. Mətn üzrə işə I sinifdən başlamaq məsləhət görülür. Cümlə ilə bağlı rəngarəng çalışmaların verilməsi şagirdlərdə

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

dərsə maraq artırır. Mətndə qrammatik-semantik cəhətdən əlaqəli və bir-birinə bağlanan, biri digərindən asılı olan və onu inkişaf etdirən çoxlu cümlələr ola bilər. Buradakı hər bir cümlə digər cümlələr ilə məntiqi cəhətdən əlaqəli olmalıdır. Bu cümlələr hər hansı bir hadisəni, elementi və s. ifadə edir.

Sintaksisin tədrisi prosesində şagirdlərin təfəkkürünü inkişaf etdirən didaktik materialların seçilməsi və düzgün tətbiqi xüsusi önəm daşıyır. Bu, şagirdlərdə bir sıra bacarıq və vərdişləri inkişaf etdirir ki, bunun üçün aşağıdakı çalışmalar üzərində iş aparmaq daha faydalıdır. Məsələn, ilk gündən cümlə daxilində olan sözlər arasındakı əlaqəni izah etmək və sintaktik təhlilin aparılması üzrə bacarıq və vərdişlər öyrədilə bilər. İbtidai siniflərdə sərbəst şəkildə cümlələr qurmaq, cümlələrin genişləndirilməsi üzrə daha mürəkkəb ifadələr yaratmaq, cümlələrin quruluşuna görə müqayisə etmək və başqa proseslərin tətbiqi cümlə anlayışının daha şüurlu surətdə öyrənilməsinə yol açır. Bu səbəbdən şagirdlərə təqdim olunan çalışmalar onların yaş və bilik səviyyəsinə, psixoloji xüsusiyyətinə uyğun aparılmalıdır.

Sintaksis üzrə verilən biliklər aşağı siniflərdə morfologiya üzrə verilmiş anlayışlara söykənməlidir. Morfologiyada qazanılan biliklər sintaksisdə davam etdirilir. Şagirdlər sintaktik əlaqələri öyrənərkən şəxs, kəmiyyət və hal şəkilçiləri kimi bəzi məlumatları xatırlamalı və nəzər yetirməlidir. Müəllim tərəfindən sintaksis təliminə şagirdlər hazırlaşarkən bir sıra məsələlərə diqqət olunmalıdır. O, cümlənin quruluşunu şagirdlərə bəhs edərkən əvvəlcə məzmun və ideyanı başa salmalı, sadə sintaktik bütövləri öyrətmək üçün isə əvvəlcə onların predmetini, hissələri arasındakı münasibətləri izah etməlidir. Bu mərhələlər şagirdlərin meyl və maraqlarına uyğun aparılmalıdır. Müəllim şagirdlər üçün sintaksisə aid materiallar seçərkən mütləq kiçik yaşlı məktəblilərin idraki

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

imkanlarını, bilik və bacarıqlarını nəzərə almalıdır. Materiallar eyni zamanda tərbiyəvi əhəmiyyət daşımalıdır.

İbtidai siniflərdə sintaksis nitq inkişafı məsələlərindən bəhs etmək üçün ən geniş və imkanlı vasitədir. Müəllimin burada əsas vəzifəsi ədəbi tələffüz və oxu, cümlə qurmaq vərdişləri, üslubiyyat, lüğət ehtiyatının zənginləşdirilməsi və rabitəli nitq inkişafı üzrə işlərin təşkil olunma yollarını bilməkdir. Oxu materiallarının məzmununun söz birləşmələri və cümlələrlə verilməsi, cümlədə məntiqi vurğu ilə düşəcək sözlərin, fasilənin müntəzəm şəkildə müəyyən olunması şagirdlərin sintaksis haqqındakı təsəvvürlərini formalaşdırmaqla, oxunun da ifadəli olmasını təmin edir.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 33-36
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 33-36
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Cəlal Əliyev**
Bakı Dövlət Universiteti
magistrant
celal.aliyev24@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ YANINDA DÖVLƏT ƏMƏK MÜFƏTTİŞLİYİ XİDMƏTİ İŞÇİLƏRİN ƏMƏK HÜQUQLARININ MÜDAFİƏSİ ÜSULLARINDAN BİRİ KİMİ

***Açar sözlər:*** *sosial-iqtisadi hüquqlar, əmək hüquqları, işçilərin hüquqlarının müdafiəsi, Dövlət Əmək Müfəttişliyi Xidməti, iddia müddəti*

***Keywords:*** *socio-economic rights, labour rights, protection of workers' rights, State Labour Inspectorate Service, claim period*

İnsan hüquqlarının müdafiə edilməsi problemi tarixin bütün dövrlərində olduğu kimi müasir dövrdə də öz aktuallığını qoruyub saxlamaqdadır. İnsan və vətəndaşların sosial-iqtisadi hüquqlarından biri kimi Azərbaycan Respublikasının Konstitusiyasında və beynəlxalq (dövlətlərarası) aktlarda öz təsbitini tapmış əmək hüquqlarının səmərəli realizəsi insanların maddi ehtiyaclarının qarşılanması, istehsalatda davamlılığın qorunması, cəmiyyətin ümumi və hərtərəfli inkişafının təmin edilməsi, həmçinin dövlətin məşğulluq siyasətinin həyata keçirilməsi baxımından daim diqqət mərkəzində olmuşdur. Əmək hüquq münasibətlərinin tərəflərindən biri kimi işçilərin əmək hüquqlarının pozulmasının qarşısının alınması, pozulduğu halda isə müdafiəsi üçün zəruri tədbirlər görülməsi dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsidir.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 33-36
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 33-36
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

Müasir dövrdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti (Xidmət) işçilərin hüquqlarının müdafiəsində digər müdafiə üsullarına nisbətən daha səmərəli və operativ rola malikdir. Azərbaycan Respublikası Prezidentinin 16 fevral 2011-ci il tarixli, 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti haqqında Əsasnamə"nin 1.1-ci bəndinə əsasən, Xidmət mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən Azərbaycan Respublikasının hüquqi şəxsləri, xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının əmək qanunvericiliyi sisteminə daxil olan digər normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır.

Xidmət Əsasnamənin III bölmədə nəzərdə tutulmuş vəzifələri icra edir, həmçinin Əsasnamənin IV bölməsində müəyyən edilmiş hüquqları həyata keçirirlər. Xidmətin işçilərin əmək hüquqlarının müdafiəsi ilə bağlı fəaliyyəti, əsasən, iki formada realizə edilə bilər. Birincisi, Xidmətin əmək müfəttişləri tərəfindən müəssisələrdə yoxlama aparılması yolu ilə. Əmək müfəttişləri qanunvericiliyə uyğun olaraq, öz səlahiyyətləri daxilində müəssisələrə daxil olaraq, əmək qanunvericiliyinə əməl edilməsi ilə əlaqədar yoxlamalar aparırlar. Bu zaman hər hansı hüquq pozuntusu aşkar edildikdə, bununla əlaqədar müvafiq prosedur tədbirlər həyata keçirilir və pozuntunun xarakterindən asılı olaraq hüquq pozucusu barəsində müvafiq tədbirlər görülməsi məsələsi həll edilir. Qeyd edilməlidir ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

Respublikasının Qanununa əsasən, 01.11.2015-ci il tarixindən etibarən sahibkarlıq sahəsində aparılan bir sıra yoxlamalar, o cümlədən əmək qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətinin həyata keçirilməsi üzrə yoxlamalar dayandırılmışdır. Qanunun 1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar iki il müddətinə dayandırılmışdı. Lakin Qanuna edilmiş dəyişikliklərlə həmin müddət hər il, bir il müddətinə olmaqla, uzadılır.

İkincisi, vətəndaşların əmək hüquqlarının pozulması halları ilə bağlı Xidmətə daxil olmuş müraciətləri əsasında. Bu kimi hallarda əmək müfəttişləri tərəfindən müraciətdə qeyd olunan pozuntu hallarının aydınlaşdırılması məqsədilə işəgötürəndən işin hallarını təsdiq edən sübutları təqdim etməsi tələb edilir. Bundan sonra əgər əmək qanunvericiliyin pozulması halı aşkar edilərsə, pozuntunun xarakterindən asılı olaraq işəgötürənin əməlinə hüquqi qiymət verilməsi məsələsi həll edilir.

Bununla belə, işçilərin əmək hüquqlarının müdafiəsində mühüm rol oynamasına baxmayaraq, Xidmətin fəaliyyəti, hüquqların mühafizə edilməsi xarakteri daşıyır və məhkəmələrdən fərqli olaraq onun hüquqbərpaedici xüsusiyyəti yoxdur. Bu da öz növbəsində işçilərin hüquqlarının müdafiəsində onun səmərəliliyinə mənfi təsir göstərir.

Eyni zamanda Xidmət Azərbaycan Respublikası Əmək Məcəlləsinin (AR ƏM) 294-cü maddəsi ilə nəzərdə tutulmuş fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqan hesab edilmir. “Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 1-ci hissəsinin, 294 və 296-cı maddələrinin şərh edilməsinə dair” Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 30.07.2021-ci il tarixli Qərarında qeyd olunur ki, Xidmət əmək qanunvericiliyində fərdi əmək mübahisələrinə baxan orqanların dairəsinə daxil

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 33-36
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 33-36
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

edilmədiyindən, həmçinin Əsasnaməyə görə təyinatı əmək qanunvericiliyi sisteminə daxil olan normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirmək olduğundan, o, fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqan kimi qəbul edilə bilməz. Fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqan qismində yalnız ƏM-nin 294-cü maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş orqanlar çıxış edir.

Xidmətin fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqan hesab edilməməsi işçi üçün bir sıra hüquqi nəticələrə səbəb olur. Belə ki, ƏM-nin 296-cı maddəsinə əsasən, işçinin pozulmuş hüquqlarının müdafiəsinə tətbiq olunan iddia müddətinin axımı hüquqlarının pozulduğunu aşkar etdiyi gündən başlayır. Xidmət fərdi əmək mübahisələrinə məhkəməyə qədər baxan orqan hesab edilmədiyindən işçinin Xidmətə müraciət etməsi iddia müddətinin axımını dayandırmır. Belə olduğu halda işçinin Xidmətə edilmiş müraciətinin nəticəsi onu qane etməzsə və nəticənin müraciət edənə məlum olduğu günədək ƏM-nin 296-cı maddəsi ilə nəzərdə tutulmuş müddətlər tamamlanarsa, həmin vaxtdan sonra işçi məhkəməyə müraciət edərkən artıq iddia müddətini ötürmüş hesab olunur.

**XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 37-38**
**Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 37-38**
**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12**

**Fatma Məmişzadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
mzde.fatma98@gmail.com

# "ELEKTROLİZ" MÖVZUSUNUN KİMYA İSTEHSALATI İLƏ ƏLAQƏLİ TƏDRİSİNİN ŞAGİRDLƏRDƏ KİMYANIN TƏTBİQ SAHƏLƏRİ ÜZRƏ BİLİK VƏ BACARIQLARININ FORMALAŞDIRILMASI

***Açar sözlər:*** *kimya, şagird, elektroliz, istehsalat, tətbiq*
***Keywords:*** *chemistry, pupil, electrolysis, production, application*

Müasir elmi tərəqqinin olduğu bir dövrdə, elm və təhsilin kimya istehsalatı ilə əlaqəsi də sürətlə inkişaf edir. Bununla bağlı olaraq şagirdlərin məktəbdə öyrənəcək kimya biliklərinin həcmi də artır. Kimya nailiyyətlərinin istehsalat prosesinə tətbiqinin genişlənməsi kimya fənninin məzmununda əsaslı dəyişikliklər yaranmasına səbəb olur. Buna görə də orta məktəbin kimya kursunda şagirdlərin kimya istehsalatı ilə bağlı mükəmməl biliyə malik olmalarının həyata keçirilməsi kimya təhsilinin mühüm məsələlərindən biridir.

Kimya fənninin tədrisi zamanı istehsalatla əlaqəli olan mövzulardan biri də "Elektroliz" mövzusudur. Bu mövzunun tətbiq sahələri ilə əlaqəsini daha dərindən öyrənmək şagirdlərdə bilik, bacarıq və vərdişlərin formalaşmasında, dünyagörüşünün artırılmasında xüsusi yer tutur.

"Elektroliz" mövzusunun tədrisi zamanı, ilk növbədə, məzmun üzrə şagirdlərə nəzəri bilikləri çatdırmaq lazımdır. Bundan əlavə isə fərqli metodlar (eksperimental, layihələndirmə və s.) tətbiq etməklə mövzunun mahiyyətini

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 37-38
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 37-38
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

daha dərindən öyrətməli və şagirdlərə elektroliz prosesi istifadə olunan sahələrlə yaxından tanış edilməlidir.

VIII sinfin kimya kursunda tədris olunan “Elektroliz” mövzusunun kimya istehsalatı ilə əlaqəli tədrisində şagirdlərin öyrəndikləri biliklər və onların əsasında formalaşan bacarıqlar və vərdişlər aşağıdakı kimi verilməlidir:

1. Elektrolizin mahiyyəti;
2. Elektrodlarda gedən proseslər;
3. Metalların elektrokimyəvi gərginlik sırasının elektrolizdə əhəmiyyəti;
4. Elektrik cərəyanının iştirakı ilə gedən kimyəvi reaksiyalar;
5. Elektrolit məhlullar;
6. Elektroliz qanunları;
7. Oksigenli və oksigensiz turşuların elektroliz prosesi;
8. Elektrodlarda gedən oksidləşmə reduksiya prosesinin xarakteri;
9. Elektroliz prosesinə təsir göstərən amillər;
10. Elektroliz prosesinin kimya istehsalatının müxtəlif sahələrində tətbiqi.

Elektrolizə aid biliklər şagirdlərdə, həmçinin analiz, sintez, müqayisə, analogiya, təsnifat, sistemləşdirmə, ümumiləşdirmə kimi əsas əqli fəaliyyəti də formalaşdırır.

Kimya müəllimi bu meyarlar əsasında dərsdə istifadə edəcəyi metodlara əsasən, şagirdlər elektroliz mövzusunda sahib olduqları bilikləri kimya istehsalatının müxtəlif sahələri ilə əlaqələndirilməyi bacarırlar.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 39-40
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 39-40
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Xırdaxanım Əliyeva**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
xanm.eliyeva.96@mail.ru

# "XEYİRXAHLIQ" ABİDƏSİ XANLAR ƏHMƏDOV: H.Z.TAĞIYEVİN MONUMENTİ

***Açar sözlər:*** *Xanlar Əhmədov, heykəltəraşlıq, H.Z.Tağıyev, abidə, tarix, Bakı, İçərişəhər, monument*

***Keywords:*** *Khanlar Ahmadov, sculpture, H.Z.Taghiyev, statue, history, Baku, Icheri Sheher, monument*

Bakıda ucaldılan ən son monumental abidələrdən biri XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış məşhur xeyriyyəçi, mesenat, öz işləri ilə Azərbaycan tarixində "Millət atası" adı ilə həkk olunan Hacı Zeynalabdin Tağıyeva məxsusdur. 18 yanvar 2022-ci il tarixində açılışı baş tutmuş bu abidənin müəllifi görkəmli heykəltəraş, xalq rəssamı, UNESCO yanında Yeni Era Dünya Rəssamlıq Akademiyasının həqiqi üzvü Xanlar Əhmədovdur.

Prezident İ.Əliyevin 2019-cu il martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə keçirdiyi görüşdən sonra ölkə başçısı tərəfindən "Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması haqqında" 11 mart 2020-ci il tarixli Sərəncam imzalanmışdır. Daha sonra heykəlinin hazırlanması ilə bağlı keçirilən açıq heykəltəraşlıq müsabiqəsinə təqdim olunan 26 əsərdən Xanlar Əhmədovun lahiyəsi qalib seçilir.

Bakıda (Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbi, 1961-1966) və Daşkənddə (A.Ostrovski adına Rəssamlıq İnstitutu, 1966-1972) ixtisas təhsili almış Xanlar Əhmədov

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

qrafika, rəsm və heykəltəraşlığın bütün janrlarında uğurlu əsərlər ərsəyə gətirmişdir.

Ümumiyyətlə, X.Əhmədov yaradıcılığında tarixi janr və tarixi portret əsas yer tutur. Xalqımızın uzaq və yaxın keçmişinə daim maraq göstərmiş heykəltəraşın yaratdığı obrazlar sırasında Ə.Şixlinski, S.Mehmandarov, R.Rza, N.Gəncəvi, Ə.Vahid, Cavad xan, Tomiris və s. vardır. X.Əhmədovun yaradıcılığında H.Z.Tağıyevin portreti müstəsna yer tutub. İstər obrazın özü, onun fəaliyyəti, yaddaşlara həkk olan xeyirxahlığı və vətəndaş cəsarəti, istərsə də xalqın tarixindəki rolu heykəltəraşdan fərdi cizgilərlə yanaşı, universal dəyərli abidənin yaradılmasını zəruri edirdi.

Abidənin xüsusiyyətləri şəhərimizdə, mədəniyyət və incəsənətimizdə baş verən yeniliklərlə bağlıdır. Müasir mərhələdə dünya təcrübəsində şəhər heykəltəraşlığı postmodernist ruhda həll edilir. Əvvəlki mərhələlərdəki kimi monumental formalar şəhərin arxitektonik mühitini ağırlaşdırır, bəzən isə ideoloji basqı xüsusiyyətli olur. Bakının heykəltəraşlıq mənzərəsinin demokratikləşməsi məhz bu tipli abidələrin ucaldılması ilə tənzimlənir.

Məqalədə Xalq rəssamı, heykəltəraş Xanlar Əhmədovun yaradıcılığına ümumi icmal baxış verilir. Sənətkarın fərdi üslubunun xüsusiyyətləri, yaradıcılığında H.Z.Tağıyev obrazının bədii dəyərləndirilməsinin necəliyi müəyyən edilir, ərsəyə gətirdiyi 3 fərqli heykəlin təhlili və müasir dünya heykəltəraşlığında Tağıyevin monumentinin yeri araşdırılır.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 41-43
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 41-43
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Gülşah Zeynalova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
zeynalovagulshah@gmail.com

# ORTA ƏSR AVROPA TEATR MEMARLIĞININ İNKİŞAF YOLLARI

***Açar sözlər:*** *teatr, əsr, dekorasiya, dairə, aktyor, memarlıq, barokko, tamaşa, zal*

***Keywords:*** *theater, century, decoration, circle, actor, architecture, baroque, performance, hall*

Orta əsrlər özünə aid bir teatr binasına sahib ola bilməmiş, kilsədə edilən ayinlər və din oyunları, orta əsrlər kilsəsinin içində başlayıb sonra meydana çıxaraq özünə oyun sahəsi yaratmağa çalışmışdır. Daha sonralar getdikcə teatr sahəsində oyanmalar başlamış və teatr məkanları da genişləndirilmişdir. XII əsrdən etibarən, artıq oyunlar kilsələrdə, monastırlarda, kafedrallarda, ya da bazarlarda, meydanlarda nümayiş olunur və həmin məkanların özlərinə xas olan daxili xüsusiyyətləri tamaşalara da daxil edilir.

XI-XII əsrlərdə kilsə oyunları həyətdə keçirildiyindən tamaşaçılar iki hissəyə ayrılırdı. İngiltərədə belə açıq hava oyunları təkərli səhnələrdə oynanılırdı. “Pagent” adı verilən bir təkərli səhnələr gəzə-gəzə şəhərin müxtəlif hissələrinə gedə bilirdi. Belə təkərli səhnələr İngiltərədə Şekspir dövrünə qədər oynanılmışdır.

Orta əsrlər dövründən artıq İslam dünyası, Antik Yunan, İran və Hindistan mədəniyyətlərinin sintezi teatr sahəsində də özünü biruzə verməyə başlayır. Roma komediya ənənələrindən gələn mimus oyunları İslam dünyasında geniş vüsət almağa başlayır. “Müdhik” adı verilən bu oyunlarda təqlid, mədhiyyə,

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

mahnı və rəqs əhəmiyyətli yer tuturdu. Açıq hava meydanlarında Kərbəla hadisələrini anladan, Hüseyinin qara bir bezlə örtülü məzarı, yandırılacaq olan kiçik bir qamış daxma kimi elementlərdən istifadə olunur.

1580−1642-ci illər arasında mindən çox oyun yeri mövcud idi. Ən tanınmış teatrlar *"Swan" (Qu), "Globe", "Fortune"* idi. Adətən bu dövrdə tikilən teatrların asan qurulub sökülə bilən səhnələri olurdu. Bu teatrlar XVI əsrin sonlarında geniş yayılmış xalqa açıq ispan teatrları ilə bənzərlik təşkil edirdilər. *Globe* teatrı Londondakı ən məşhur Elizabet dövrü teatrlarındandır.

Müasir teatrın ilk nümunəsi olaraq qəbul edilən *Farneze* teatrı isə qalıcı çərçivə səhnəsinə sahib olan ilk teatr quruluşudur. *Ufizzi* teatrının günümüzə çata bilməməsi səbəbiylə Giovan Battista Aleotti tərəfindən tikilən Farneze teatrı (1618) məlum olan ən qədim çərçivə səhnəli teatr memarlığı nümunəsidir. Farneze teatrı "U" formalı tamaşa zalı və rəqs nümayişləri üçün nəzərdə tutulmuş geniş bir səhnə ilə əhatələnmişdi.

Barokko dövrü XVI−XVIII əsrlərdə hakim olan bir sənət və mədəniyyət dövrüdür. Barokko teatr səhnələrində xüsusilə dekor texnikalarına çox əhəmiyyət verilməyə başlanmışdır. İngiltərənin bir çox teatrlarında səhnə "kölgə" və ya "cənnət" adı verilən bir dam ilə əhatə olunurdu. Bu dam teatrı həm hava şəraitindən qoruyur, həm də xüsusi effektlər və ya texniki avadanlıqlar üçün saxlama yeri olaraq istifadə olunurdu. Oyun yeri tamaşaçının üç tərəfdən də izləyə biləcəyi formada qurulmuşdur

Rusiyada xalq teatrlarına, o cümlədən dini teatrlara X əsrdən etibarən rast gəlmək olar. Lakin mənbələrdə Moskvada ilk teatr binasının 1672-ci ildə tikildiyi qeyd olunur. 1720-1750-ci illərdə isə artıq teatr sahəsi geniş vüsət almağa başlayır. 1776-cı ildə Kral Pyotr və Michael Maddox

**XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 41-43**
**Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 41-43**
**DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12**

tərəfindən qurulan və memar Joseph Bove tərəfindən hazırlanan *“Bolşoy Kral teatrı”* ən parlaq nümunə idi. Bu teatr opera və balet sahəsində ən köhnə və ən böyük teatrlarından hesab olunur.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 44-47
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 44-47
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Elza Orucova**
Azərbaycan Tibb Universiteti
tibb üzrə fəlsəfə doktoru
elza qudretqizi@ gmail.com
**Ələsgər Vəliyev**
Azərbaycan Tibb Universiteti
tibb üzrə fəlsəfə doktoru
alaskar67@ gmail.com
**Reyhan Bəylərova**
Azərbaycan Tibb Universiteti
tibb üzrə fəlsəfə doktoru
reyhan.baylarova@gmail.com
**Məlahət Bağırova**
Azərbaycan Tibb Universiteti
bmalahet@gmail.com
**Maya Fərzəliyeva**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi
Profilaktika İnstitutu
mayafarzaliyeva04@gmail.com

## KƏSKİN RESPİRATOR VİRUS İNFEKSİYALARININ KOMPLEKS TERAPİYASINDA KAQOSELİN TƏTBİQİ

***Açar sözlər:*** *kəskin respirator virus infeksiyaları, Kaqosel, interferon induktorları, interferonlar, selektiv və qeyri-selektiv antivirus vasitələr, pambıq kolu*

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

***Keywords:*** *the acute respiratory viral infections, Kagosel, interferon inducers, interferons, selective and non-selective antivirus means, cotton bush*

Müasir zamanda kəskin respirator virus infeksiyaları (KRVİ) əhalinin infeksion xəstəliklər strukturunda yüksək səviyyədə qalmaqda davam edir. Bunların sırasında qrip 25-30% hallarda ölümə cavabdeh olan ağırlaşmalarla fərqlənir. Respirator infeksiyaların müalicə problemi də praktik səhiyyə üçün aktuallıq təşkil etdiyinə görə praktik həkimlər onların müalicəsində seçim preparatı problemi ilə qarşılaşırlar (Yushuk, 2021: 1104; 2020: 22; Pirali, 2015: 1189; Smith, 2010: 31).

Dünya təcrübəsində hələ də KRVİ-də patogenetik və simptomatik terapiyaya üstünlük verilir, çünki radikal effekti tam təmin edən dərman vasitələri yoxdur və nəticədə qrip və digər KRVİ *az nəzarət edilən infeksiya* kimi qalmaqda davam edir. Bununla belə, qrip və digər KRVİ-nin müalicə və profilaktikası üçün bir neçə virus əleyhinə vasitələr tövsiyə edilir: *selektiv* (neyraminidaza ingibitorları, adamantanlar) və *qeyri-selektiv* təsirli antivirus vasitələr (interferonlar – İFR və interferon indikatorları – İİ). Selektiv antivirus vasitələrin klinik effektliyi tam sübuta yetirilsə də, yüksək tezlikli və toksiklik kimi ciddi yanaşı təsirlərinə görə onların istifadəsi məhdudlaşdırılıb. Onlar yalnız qripin erkən mərhələsində effektlidir (24-48 saatdan gec olmayaraq), seçici xüsusiyyətinə malik olduğuna görə A qrip virusuna təsir göstərir, digər KRVİ-nin törədicilərinə isə təsir etmirlər (Karetkina, 2015: 25; 2015: 2).

Son zamanlar bitki xammalından (pambıq kolu) və kimyəvi sintez yolu ilə polifenoldan hazırlanmış sellüloza əsaslı orijinal preparat Kaqoselin effektliliyinə dair məlumatlara rast gəlinir. Ekzogen tətbiq edilən İFN-dən fərqli

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

olaraq İİ-nin son nəsil nümayəndəsi Kaqosel endogen İFN hasilini induksiya etməsi kimi təsir mexanizminə və antivirus xassəli, immunmoduləedici effektə malikdir. Ədəbiyyat məlumatlarına görə əvvəllər qəbul edilmiş dərmanlarla müqayisədə Kaqosel bir sıra üstünlüklərə malikdir: təhlükəsizdir, asan qəbul edilir, zəif allregendir, əlavə və toksiki reaksiyaları yoxdur, o hətta xəstəliyin nisbətən geç dövrlərində (IV günə kimi) qəbul edilə bilər, antivirus aktivliyinə, ifadəli immunmoduləedici təsirə malikdir (Karetkina, 2015; Kharlamova, 2012: 32).

Tədqiqatın məqsədini KRVI-nin kompleks müalicəsində bazis terapiya ilə müqayisədə Kaqoselin klinik effektliyini qiymətləndirmək təşkil etmişdir. Tədqiqat obyektini “KRVİ, orta ağır forma” diaqnozu ilə müayinəyə cəlb edilmiş böyük yaşlı 69 pasient təşkil etmişdir. Tədqiqat işində klinik-mikrobioloji, ekspres immunuxromatoqrqfik üsulullardan istifadə edilmişdir. Yaşa, cinsə görə eyni olan xəstələr 2 qrupa bölünmüş, onlardan 34 nəfərdə yalnız bazis terapiya aparılmış, 35 nəfər isə bazis terapiya ilə yanaşı, Kaqosel peroral (ilk 2 gün 2 tab.×3 dəfə sonrakı 2 gündə isə 1 tab.×3 dəfə – cəmi 4 gün, 10 tab.) qəbul etmişdir.

Kaqosel qəbul etmiş və bazis terapiya almış xəstələrdə əsas klinik təzahürlərin davam etmə müddətinin müqayisəsi göstərdi ki, sözügedən preparatı qəbul etmiş xəstələrdə qızdırma dövrünün müddəti qısalmış, digər intoksikasiya təzahürləri daha tez itmiş və ya yumşalmış və rinoreya, boğazda ağrı, göynəmə, öskürək kimi kataral əlamətlər tez aradan qaldırılmışdır. Bütövlükdə, Kaqoselin klinik efektliliyi ümumi intoksikasiya və kataral sindromların minimallaşdırılmasında özünü göstərmişdir.

Aparılmış klinik müayinələrdən əldə olunan nəticələr A və B tip qrip və digər KRVİ-li (I, II, III tip paraqrip, adenovirus və RS-virus infeksiyaları) xəstələrin müalicəsində Kaqoselin

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

yüksək terapevtik effektliyinə şahidlik etməklə onun virus əleyhinə vasitə kimi tövsiyə edilməsinə imkan yaradır.

## Ədəbiyyat


1. Yushuk, N.D., Vengerova, Y.Y. (2021). Infektsionnyye bolezni: natsionalnoye rukovodstvo. Moskva: GEOTAR-Media, 1104 s.
2. Bulleten of the World Health Organization. (2020). March. Issuse. 211, 22 p.
3. Pirali, A., Moreno, A., Oriandi, M., et al. (2015). Swine influnza A (H3N2) virus infection immunocompromised man. Italiy, Emerg. Infec. Dis.Vol. 21, No. 7, p.1189-1191.
4. Smith, J.R., Ariano, R.E., Toovey, S.J. (2010). The use of antiviral agents for the manageme of severe influnza. Crit. Care Med. Vol.3, No. 38, p.31-39.
5. Karetkina, G.N. (2015). Grip i ORVI: problemy profilaktiki i lecheniya. Infektsionnyye bolezni. № 4, s.25-34.
6. Karetkina, G.N. (2015). Grip i ORVI: lecheniye i profilaktika v nastupivshim epidemicheskom sezone 2015-2016 gg. Jurnal "Lechashiy vrach".
7. Rekomendatsii po diagnostike i lecheniyu u vzroslykh bolnykh (s modelyami patsientov). (2015). Sovremennaya meditsina: izhbrannyye voprosy. № 1, s.2-56.
8. Kharlamova, F.S., Kladova, O.V., Uchaykin, V.F. (2012). Vozhmojnosti primeneniya protivovirusnogo preparata Kagosela dlya profilaktiki i lecheniya grippa i drugikh ostrykh respiratornykh infektsiy u chasto boleyushikh detey mladshego vozrasta. Epidemiologiya i infektsii. № 1, s.32-40.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 48-50
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 48-50
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Lətifə Şahmarova**
"Kadastr və Yerquruluşu
Layihə-Tədqiqat Mərkəzi" MMC
shahmarova.latifa@mail.ru
**Pərvin Abdinov**
"Kadastr və Yerquruluşu
Layihə-Tədqiqat Mərkəzi" MMC
pervinabi@gmail.com
UOT:631.157

# HƏRBİ EROZİYA PROSESİNİN TORPAQLARIN MÜNBİTLİYİNƏ TƏSİRİ

***Açar sözlər:*** *torpaq eroziyası, qranulometrik, oksidləşmə-reduksiya prosesi, ağır metallar, mikroelementlər*
***Keywords:*** *soil erosion, granulometric, oxidation-reduction process, heavy metals, microelements*

Hərbi silah və texnikaların hərəkəti nəticəsində torpaq və bitki örtüyünün məhv edilməsi nəticəsində quraq sahələrin yaranması, torpaq və yerüstü su sahələrinin çirklənməsinə gətirib çıxarır. Müdafiə xarakterli hərbi tikintilər və hərbi texnikanın yerləşdirilməsi üçün səngərlərin qazılması relyefin dəyişməsi, zibilliklərin əmələ gəlməsi və torpaq süxurlarının dağılması ilə nəticələnir. Hərbi silah və texnikanın müvəqqəti və ya stansionar yerləşdirilməsi torpaq və bitki örtüyü arasındakı balansın pozulmasına, bitki örtüyünün seyrəkləşməsinə səbəb olur. Nəticədə torpaq və bitki örtüyü məhv olur. Bu da torpaqların bataqlaşmasına, şoranlaşmasına və səhralaşmasına gətirib çıxarır. Zəngilan rayonunun Məmmədbəyli kəndində torpaqların münbitliyinin öyrənilməsi məqsədilə 2022-ci ildə tədqiqat işləri aparılmış və məlum olmuşdur ki, hərbi fəaliyyətlər və uzun müddət işğal altında

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

baxımsızlıq nəticəsində torpaqların münbitlik göstəriciləri xeyli aşağı düşmüşdür. Qida maddələrinin ehtiyyatının azalması taxılların inkişafdan geri qalmasına səbəb olmuşdur. Suvarmanın zəif olması və ya gecikməsi kol diblərində gövdənin səthə yaxın hissələrində saralmaların yaranmasına səbəb olmuşdur.

Laboratoriya analizlərinin nəticələrinə əsasən müəyyən edilmişdir ki, torpaqların kənd təsərrüfatına yararlığının öyrənilməsi üçün taxıl sahəsindən götürülmüş açıq boz-qəhvəyi torpaqların 0-30 sm-lik əkin qatının qranulometrik tərkibi yüngül gilliсəlidir (25,44%). Nəmlik 4,03%-dir. Humusun səviyyəsi 2,85% olub, dəyərləndirmə dərəcəsi ortadır. Orta karbonatlıdır. pH 8,21 vahiddir, yəni torpaq mühiti qələvidir. Duzluluq (EC) norması 0-2 ms/cm arasında 0,168 ms/cm təşkil edir ki, buda torpaqların duzsuz olduğuna işarədir. Humusa əsasən ümumi azot 0,175%-dir. Mənimsənilə bilən fosforun ($P_2O_5$) miqdarı 52,67 kq/ha (zəif göstərici), kaliumun ($K_2O$) miqdarı isə 2781 kq/ha-dır (çox yüksək göstəricidir). Mənimsənilə bilən kalsium (Ca=4560 mq/kq) yüksək, natrium (Na=2,47 mq/kq) isə çox zəifdir. Torpaqdakı dəmirin (Fe) miqdarı 6,41 mq/kq-dır. Norma göstəricisindən (2,5-4,5) yüksəkdir. Mikroelementlərdən olan mis (Cu=1,57 mq/kq) yetərli dərəcədə olsa da, sink (Zn=0.174 mq/kq) və manqan (Mn=8,33 mq/kq) elementinin dəyərləndirməsi zəifdir.

Uzun müddət işğal altında baxımsızlıqdan əziyyət çəkmiş, eyni zamanda 2020-ci ildə Azərbaycan və Ermənistan arasında baş vermiş müharibənin nəticəsi olaraq bu torpaqlarda aşağıda qeyd olunan məsələlərin həllini tapması labüddür:

1. Gəmiricilərə qarşı aqrotexniki və kimyəvi mübarizə tədbirləri aparılmalıdır. Siçanabənzər gəmiricilərə qarşı müxtəlif aldadıcı yemlər hazırlanıb yuvalara qoyulur. Aldadıcı yemlər bitkilərin yaşıl kütləsindən, arpa, buğda və qarğıdalının yaşıl yarpaqlarından və dənlərdən hazırlanır. Məhsulun tez və

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

itkisiz yığılması, növbəli əkin sisteminin tətbiqi, məhsul yığımından sonra sahədə önkotancıqlı kotanla 25-30 sm dərinliyində şum aparılmalıdır. Bu tədbir siçan yuvalarının məhv olmasına, onların üst qatlarının dağılmasına səbəb olur (Ağayev, 2017: 17).

2. Taxıl bitkilərində pas xəstəlikləri məhsuldarlığı və qışa davamlılığı aşağı düşür, dənlərin miqdarı azalır. Ərazidə pas xəstəliyinin müşahidə olunması burada yabanı taxıl bitkilərinin və alaq otlarının yayılması ilə əlaqədardır. Payızda həmin bitkilər payızlıq taxıl əkin sahələrini yoluxdururlar (Xəlilova, İsmayılzadə, Səfərova, 2017: 67).

3. Tədqiqat sahəsində fosfor çatışmazlığı nəticəsində yaşlı yarpaqlarda sarımtıl-yaşıl və tünd-yaşıl ləkələr əmələ gəlir. Belə olduqda bitkinin soyuğa davamlılığı azalır. Fosforun bərpa edilməsi üçün torpağa xəzəl və bitki mənşəli çürüntülər verilməli, tərkibində mənimsənilə bilən fosfor olan gübrələrdən istifadə etməklə xəstəliyi aradan qaldırmaq olar. Fosfor gübrələri torpağa şumlamadan qabaq torpaq altına verilir (Ağayev, 2016: 110).

4. Taxıl bitkilərində yarpaqlara yaşıllıq verən xlorofilin miqdarının azalması sink çatışmazlığı ilə bağlıdır ki, bu zaman oksidləşmə-reduksiya prosesində tarazlıq pozulur, karbohidratların mübadiləsi ləngiyir (Ağayev, 2016: 123).

## Ədəbiyyat

1. Ağayev, C.T. (2017). Taxıl bitkilərinin zərərvericiləri və alaq otları. Bakı: “Müəllim” nəşriyyatı, 48 s.
2. Xəlilova, Z.H., İsmayılzadə, N.N., Səfərova, İ.M. (2017). Kənd təsərrüfatı bitkilərinin zərərverici və xəstəliklərinin proqnozu (dərs vəsaiti). Bakı: “Müəllim” nəşriyyatı, 194 s.
3. Ağayev, C.T. (2016). Kənd təsərrüfatı bitkilərinin xəstəlikləri. Bakı: “Müəllim” nəşriyyatı, 200 s.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 51-53
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 51-53
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Samira Abdullayeva**
Azerbaijan State Agrarian University
akifnovruzov44@gmail.com

# THE TERM "SLANG" AS A SUBJECT OF ETYMOLOGICAL STUDY

***Keywords:*** *slangs, linguistic paleontology, original meaning of the word, dictionary of slang, etymological research*

***Açar sözlər:*** *slenqlər, linqvistik paleontologiya, sözün orijinal mənası, jarqon lüğəti, etimoloji tədqiqat*

The term "slang" as a subject of etymological research is a rather complex structural unit. During the period of formation, this unit of the language underwent significant changes that affected both the semantic and word-formation structure of the word. Exploring the term "slang", it is worth paying attention to such a concept as "linguistic paleontology" - "linguistic and auxiliary historical science that uses linguistic data to obtain information about the history of native speakers and their material and spiritual culture...".

Adhering to the above definition, it is necessary to find out where the word “slang” comes from in Britain, what historical events influenced the formation and further transformation of the original meaning of the word, can we consider the “*great migration of peoples*” as one of the main factors that changed not only the territorial, but and linguistic component of this region

The expansion of Britain should not be understood as the complete destruction and displacement of the words of the language of the indigenous peoples who inhabited these lands.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

With the advent of the Germanic Anglo-Saxon tribes, the language also acquired new structural units, which not only transformed its sign system, but also preserved the old means of expression. A more detailed study of the Anglo-Saxon version of the appearance of the term “slang” leads us to the idea that “in English, the word “slang” comes from the Anglo-Saxon language rather than from Latin, Italian, Spanish or French”.

In turn, the English linguist S. Johnson draws attention to the fact that “slang” is the past tense form of the verb “to sling”. The initial meaning and form of which should be considered the verb of Anglo-Saxon origin “slingan”...

As a consequence, the term “slang” is able to act not only in the past tense form of the verb “to sling”, but also as a holistic concept expressing an identical meaning associated with the same etymological basis with the Old English word “slingan”, which eventually lost the identical morphemic semantic structure of the word.

English philologist Walter Skeet, a supporter of the Scandinavian point of view of the origin of the word “slang,” cites as an example ... the Norwegian form of the verb “slengja” (to sling), which generates a group of words with a similar derivational meaning: “slengja kieften” to slang, to abuse (insult, scold) (literally to sling the jaw); “slengjenamn” a slang-name (nickname), “slengjeord”, insulting word (pejorative).

Such lexicographers as "... Weekley, Bradley, Wilde, are in solidarity with him, highlighting at the same time the Norwegian expression "slengja kieften" and other forms of the word "sleng" (Partridge, 2000: 1083).

E.Partridge, compiler of The Routledge Dictionary of Historical Slang, notes that the verb “to sling” should be considered the etymon of the concept “slang”. This statement

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 51-53
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 51-53
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

corresponds to such slang expressions as: “to slang the mauleys”; “to sling language”; “to sling the bat” (Partridge, 2002: 854).

## References

1. Partridge, E., Beale. (2000). A Dictionary of Slang and Unconventional English. L.: Routledge.
2. Partridge, E. (2002). The Routledge Dictionary of Historical Slang. L.: Routledge & Kegan.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 54-57
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 54-57
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

# TEXNİKA ELMLƏRİ

# TECHNICAL SCIENCES

**Diana Karatova**
Azerbaijan State Oil and Industry University
master student
karatovad@gmail.com

## NETWORK SECURITY LAYERS

***Keywords:*** *security layers, access control, network segmentation, data security, monitoring and analysis*
***Açar sözlər:*** *təhlükəsizlik səviyyələri, girişə nəzarət, şəbəkə seqmentasiyası, məlumat təhlükəsizliyi, monitorinq və təhlil*

Ensuring the security of a network is crucial for protecting it against various threats (Shabbeer, Sivaranjani, 2018: 3). To achieve this, different layers of security can be implemented. In the picture 1 illustrated these layers.




**Picture 1. Network Security Layers**

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 54-57
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 54-57
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

*Physical security*

The first layer of security is physical security, which involves securing the physical components of the network (Kovalev, 2013: 32). Measures such as locks, access control systems, and surveillance cameras can be used to safeguard servers, routers, switches, and other devices from physical threats.

*Perimeter security*

The second layer of security is perimeter security that requires securing the network perimeter to prevent unauthorized access (Sreejith, Vimala, 2017: 4). Firewall systems, virtual private networks (VPNs), intrusion detection and prevention systems can be used to defend against external threats such as malware and hackers.

*Network segmentation*

The third layer of security is network segmentation, which involves dividing the network into smaller subnetworks. This helps to reduce the attack surface and limit the spread of potential attacks. Network segmentation can be implemented using firewalls, routers, switches, and other devices.

*Access control*

The fourth layer of security is access control, which involves controlling access to data and network resources. Measures such as authentication, authorization, and accounting (AAA) can be used to ensure that only authorized users can access the network.

*Application security*

The fifth layer of security is application security, which involves securing the applications and services running on the network (Kovalev, 2013: 32). Measures such as web application firewalls, secure coding practices, and vulnerability scanning can be used to protect against application-level attacks.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

*Data security*

The sixth layer of security is data security that include protecting the confidentiality, integrity, and availability of data. Measures such as encryption, data backup and recovery, and data loss prevention (DLP) can be used to protect sensitive data from unauthorized access, theft, or loss (4).

*Monitoring and analysis*

The seventh layer of security is monitoring and analysis, which involves monitoring the network for potential threats and analyzing network data to identify security risks (Cherepanov, 2021: 84). Security information and event management (SIEM) systems, intrusion detection and prevention systems, and network traffic analysis can be used for this purpose.

In summary, implementing these layers of security can help organizations to protect their network infrastructure from various security threats. Each layer provides a unique set of security measures that work together to provide comprehensive network security (Cherepanov, 2021: 84). By ensuring the security of their network, organizations can prevent and mitigate security incidents, protect sensitive data, and maintain the integrity and availability of their network resources.

## References

1. Shabbeer, S.M., Sivaranjani, M. (2018). International Journal of Pure and Applied Mathematics. A Comprehensive Study on Network Security and Its Approaches, p.3.
2. Kovalev, I.G. (2013). Protection of information in computer systems and networks, p.32.
3. Sreejith, S., Vimala, S. (2017). International Journal of Advanced Research in Computer Science. A Survey on

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 54-57
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 54-57
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

Network Security Threats and Their Countermeasures, p.4.
4. https://www.checkpoint.com/cyber-hub/network-security/what-is-network-security/
5. Cherepanov, A.V. (2021). Network attacks and methods of dealing with them, p.84.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 58-61
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 58-61
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Nazrin Efendiyeva**
Azerbaijan State Oil and Industry University
master student
nazaefendi@gamil.com

# IMPLEMENTING IOT IN SMART HOME

***Keywords:*** *the internet of things, privacy, security, smart home, sensors*
***Açar sözlər:*** *əşyaların interneti, məxfilik, təhlükəsizlik, ağıllı ev, sensorlar*

The Internet of Things (IoT) has been rapidly transforming the way we live and work in the modern era. One of the most significant areas where IoT has been making a difference is smart homes (1). The integration of IoT in smart homes has provided us with a plethora of benefits and convenience that we could not have imagined before. In this article, we will explore the impact of IoT in smart homes.

## What is IoT in Smart Homes?

IoT in smart homes is the use of interconnected devices, appliances, and systems to automate and streamline home functions such as lighting, heating, air conditioning, security, and entertainment. IoT-enabled devices can communicate with each other, monitor and analyze data, and respond to user inputs and preferences (Shahzad, Imran, Ahmed, 2018: 12).

For example, a smart thermostat can learn your temperature preferences and automatically adjust the temperature in your home based on your behavior and schedule. Smart lighting can turn on or off depending on your location, time of day, or voice commands. Smart security systems can notify you when someone is at your door, monitor for unusual activity, and alert you if there is an intruder.

XII Respublika Elmi Qaynaqlar Konfransının Materialları / 27 mart 2023 / 58-61
Materials of the XII Republican Conference of Scientific Sources / 27 march 2023 / 58-61
DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

**Benefits of IoT in Smart Homes**

- Convenience: IoT-enabled devices allow you to control and monitor your home from anywhere, at any time, using your smartphone or tablet. This means you can adjust your thermostat, turn off lights, or check your security cameras, even when you are away from home.
- Energy Efficiency: Smart homes equipped with IoT-enabled devices can offer numerous energy-saving benefits. One of the most popular ways is by utilizing smart thermostats, which adjust the temperature of the home based on the occupant's behavior, resulting in lower energy waste and decreased utility bills. Furthermore, smart lighting systems can be programmed to turn off automatically when no one is in a room, reducing energy consumption. In addition, smart appliances such as washing machines and refrigerators can optimize energy usage by adjusting settings based on the size of loads and the contents being stored. By using these devices, homeowners can achieve significant energy savings and reduce their environmental impact (Alhalabi, Al-Waisy, Bazi, 2020: 13).
- Safety and Security: Smart security systems can provide you with peace of mind by monitoring your home and alerting you if there is any unusual activity. Smart locks can provide keyless entry to your home, and smart cameras can provide live video feeds of your home.
- Health and Wellness: Smart home devices enabled by IoT technology can offer several benefits to help maintain a comfortable and healthy living environment (1). For instance, smart air quality sensors can monitor indoor air quality and alert homeowners of any issues. Smart mattresses can also be adjusted to the occupant's preferred temperature and firmness levels, promoting better sleep and reducing discomfort (Alhalabi, Al-Waisy, Bazi, 2020: 13).

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

While IoT in smart homes provides numerous benefits, there are also some challenges that need to be addressed (Bandyopadhyay, Sen, 2021: 182).

- Privacy and Security: As more and more devices are connected to the internet, the risk of cyber-attacks and data breaches increases. It is essential to ensure that all devices are secure, and user data is protected (1).
- Interoperability: There are many different types of IoT-enabled devices, and they may not always work well together. It is essential to ensure that all devices are compatible and can communicate with each other.
- Complexity: IoT-enabled devices can be complex to set up and use, especially for non-technical users. It is essential to ensure that devices are easy to use and that users can understand how they work.

IoT in smart homes has the potential to revolutionize the way we live and work. By providing us with convenience, energy efficiency, safety, and health benefits, IoT-enabled devices can make our lives easier and more comfortable. However, there are also challenges that need to be addressed, such as privacy and security, interoperability, and complexity. As we continue to integrate IoT into our homes, it is essential to address these challenges to ensure that we can enjoy the benefits of this technology safely and securely (Shahzad, Imran, Ahmed, 2018: 12).

## References

1. https://behrtech.com/blog/top-10-iot-sensor-types/
2. Shahzad, M.A., Imran, M., Ahmed, A. (2018). Wireless Personal Communications, Vol. 103, No. 2, pp.1199-1231. "Internet of Things (IoT) in Smart Home: A Review of Existing Technologies and Open Research Challenges", p.12.

DOI: https://doi.org/10.36719/2663-4619/2023/4/12

3. Alhalabi, B.M., Al-Waisy, A., Bazi, Y. (2020). IEEE Internet of Things Journal, Vol. 7, No. 7, pp.5781-5801. IoT-Based Smart Home: A Survey, p.13.
4. Bandyopadhyay, S., Sen, J. (2021). Internet of Things: Applications and Challenges in Smart Cities, Smart Homes, and Healthcare, p.182.

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Afaq Hacıyeva**
Reklam sahəsində Azərbaycan Respublikasının mövcud qanunvericiliyinin ən maraqlı məqamları ..................................6
**Xəzər Aslanov**
Qeyri-formal iqtisadiyyatın mahiyyəti və Azərbaycanda ona qarşı görülən tədbirlər .....................................................10
**Vüsalə Həsənova**
Heca fonoloji sistemin reallaşmasının linqvistik məkanı kimi ...................................................................15
**Nərgiz Rzayeva**
Çağdaş dövr Azərbaycan təsviri sənətində milli ənənələrin müasir interpretasiyası ......................................................... 25
**Əlləz Əhmədov**
Müstəqillik dövrü Azərbaycan teatrında repertuar və tamaşaçı problemi ..............................................................28
**Ayan Əliyeva**
İbtidai siniflərdə sintaksisin öyrədilməsi üzrə işin məzmunu ..........................................................................31
**Cəlal Əliyev**
Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti işçilərin əmək hüquqlarının müdafiəsi üsullarından biri kimi ..........................................................34
**Fatma Məmişzadə**
"Elektroliz" mövzusunun kimya istehsalatı ilə əlaqəli tədrisinin şagirdlərdə kimyanın tətbiq sahələri üzrə bilik və bacarıqlarının formalaşdırılması ...............................38

**Xırdaxanım Əliyeva**
"Xeyirxahlıq" abidəsi Xanlar Əhmədov: H.Z.Tağıyevin monumenti ........................................................................40
**Gülşah Zeynalova**
Orta əsr Avropa teatr memarlığının inkişaf yolları ................42

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Elza Orucova, Ələsgər Vəliyev, Reyhan Bəylərova Məlahət Bağırova, Maya Fərzəliyeva**
Kəskin respirator virus infeksiyalarının kompleks terapiyasında Kaqoselin tətbiqi ............................................45
**Lətifə Şahmarova, Pərvin Abdinov**
Hərbi eroziya prosesinin torpaqların münbitliyinə təsiri .......49
**Samira Abdullayeva**
The term "slang" as a subject of etymological study ............52

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Diana Karatova**
Network security layers .......................................................55
**Nazrin Efendiyeva**
Implementing IoT in smart home .........................................59

İmzalandı: 26.03.2023
Formatı: 60/84, 1/16
H/n həcmi: 4 ç.v.
Sifariş: 625

---

“ZƏNGƏZURDA” çap evində çap olunub.
**Ünvan:** Bakı şəh., Mətbuat prospekti 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru